Xidmətlərin göstərilməsinin
ümumi qaydalarına 1 №-li Əlavə.

**Göndərişlərin qablaşdırılmasına və markalanmasına dair tələblər**

1. Qablaşdırma göndərişləri zədələnmədən, itirmədən, icazəsiz açmaqdan, və həmçinin digər göndərişlərin xarab edilməsindən və üçüncü şəxslərə və onların əmlaklarına hər hansı zərərin vurulmasından qorumalıdır.
2. Nəqliyyat qablaşdırılmasının növü göndərişin içindəkinin növünə uyğun olmalıdır (Cədvəl 1).
3. Qablaşdırmanın üslubu göndərişin içindəkinin növünə uyğun olmalıdır, (Cədvəl 1), əlavə qablaşdırma materiallarından istifadə edilməlidir:
- fərdi qablaşdırmanın daxilində və xaricində amortizasiya üçün: hava-qovuqlu təbəqə, AIRPAKER hava paketləri, "filler" preslənmiş kartonu, qablaşdırma kağızı, büzməli təbəqə karton (3 qat və 5 qat);
- qablaşdırmada iki və daha çox əşya varsa bir-birindən aralı olması üçün AIRPAKER hava paketləri, "filler" preslənmiş kartonu büzməli təbəqə karton (3 qat və 5 qat), təbəqə penopolistirol, penoplast, təbəqə şanşəkilli karton;
- qablaşdırmanın daxilindəki boşluqların doldurulması üçün: hava-qovuqlu təbəqə, AIRPAKER hava paketləri, "filler" preslənmiş kartonu, qablaşdırma kağızı, büzməli təbəqə karton (3 qat və 5 qat), təbəqə penopolistirol, penoplast, təbəqə şanşəkilli karton, streyç təbəqə və əl altında olan başqa vasitələr (əski, əzik qəzet, karton qırıqları);
- rütubətdən və tozdan qorunması üçün: hava-qovuqlu təbəqə, streyç təbəqə.
4. Qablaşdırmada göndərişin (o cümlədən zavod qablaşdırmasındakı göndərişin) daxilində boşluq olmamalıdır. Zavod qablaşdırılması coxtəbəqəli kartondan istehsal edilmişdirsə və məsələn, artıq 2 sm-dan az olmayan qalınlıqda penoplastandan "daxili qəfəsi" varsa o zaman əlavə qablaşdırma tələb olunmur.
5. "Taxta qəfəs" tələb edən Göndərişlər amortizasiya və mühafiə üçün əlavə materiallarla qablaşdırılmalıdırlar (Cədvəl 1)
6. Göndərişlərin qablaşdırılmasında təkrar istifadə əlamətləri - deşiklər, batıqlar, sürtüklər, yağ və çirk izləri, bu göndərişə aid olmayan kənar informasiya: markalanmalar, loqotiplər, yazılar, ştrix-kodlar və s. olmamalıdır.
7. Göndərişin içindəki əşyanın ölçüsü və çəkisi nəqliyyat qablaşdırmasının icazə verilən çəkisindən və ölçülərindən artıq ola bilməz, göndərişin hissələrinin qablaşdırmasının hüdudundan kənara çıxmasına yol verilmir.
8. Düz formada olmayan - dairəvi, oval şəkilli, səthi sabit olmayan (yellənməsi, aşması ehtimal oluna bilər və s.), uclu və çıxıntılı hissələri olan və s. göndərişlərin yerinin dəyişməsini və zədələnməsini istisna etmək üçün onlar mükəmməl qablaşdırılmalı və qablaşdırmanın daxilində bərkidilməlidirlər.
9. Bir neçə əşyadan və ya bir neçə hissədən ibarət əşyadan ibarət olan göndərişin nəqliyyat qablaşdırmasının içində göndərilməsi zamanı o, ayrıca amortizasiya üçün materiallarla qablaşdırılır, nəqliyyat qablaşdırılmasına yerləşdirilir və onların arasına bir-birlərindən ayrılmaları və sıxlaşdırılmaları üçün materiallar qoyulur.
10. Büzməli kartondan olan qutunun içində göndərişlər mərkəzdə yerləşdirilirlər, qutunun divarlarına, dibinə və yuxarı hissəsinə qədər olan məsafə 2 sm-dən az və 5 sm-dən çox az olmamalı, boşluqlar sıxlaşdırma materialları ilə doldurulmalıdırlar.
11. Göndərişlərin qablaşdırılmasına və markalanmasına dair hazırki Tələblər habelə yığılma göndərişlərin tərkibində göndərilən Göndərişlərə də tətbiq edilirlər.
12. Göndərişin markalanmasında aşağıdakılar olmalıdırlar
- ŞK nəqliyyat etiketi, o, qablaşdırmadan sonra hər bir qablaşdırmaya, o cümlədən
çoxyerli qablaşdırmaya vurulmalıdır. ŞK etiketi A6 (100x150 mm / 105x148,5 mm) formatda olmalıdır, ştrix-kod sahəsində sərhədləri aydın oxunulan olmalıdır, əziksiz və bir səthdən digər səthə keçməsi olmamalıdır.
ŞK etiketi özüyapışan kağızda çap olunmalıdır.
Çap üçün aşağıda göstərilən materiallardan istifadə etmək tövsiyyə olunur:
- termotransfer printerdə yarımparıltılı kağız etiket, mum-qatran örtüklü "Ribbon" rəngləyici lent;
- termoprinterdə termoTop örtüklü kağız etiket

ŞK aşağıdakı usullarla çap edilə bilər:
- Müştəri müstəqil olaraq Şəxsi kabineti vasitəsi ilə
- əməkdaş İcraçının ofisində

ŞK yerləşdirildiyi yer: CDEK qablaşdırılması üçün xüsusi ilə nəzərdə tutulmuş yerdə, başqa qablaşdırmalarda qablaşdırmanın qalpağının üzərinə düşməmək şərtilə üz tərəfdə və üst səthdə.

- Təhlükəsizlik stikerləri (tövsiyyə olunurlar): yumşaq plomb ŞK (qablaşdırmanın nömrəsi), plomblama qurğuları (qablaşdırmanın nömrəsi və açılmaya nəzarət).
Göndərişlərin markalanması daşınma şərtlərinə uyğun olan davranma və/və ya məlumat xarakterli stikerlərə ("kövrək", "yuxarı", "təhlükəli", "növbəti gün çatdırma", "qəfəs" və s. kimi stikerlərə) malik olmalıdır.
**13. Qablaşdırma materiallarını Müştəri CDEK şirkətində əldə edə bilər və ya öz qablaşdırmasına qablaşdıra bilər. Qablaşdırma növləri və qablaşdırma üzrə təlimat: https://www.cdek.ru/ru/calculate**
**14.** Zədələnmələrin xüsusiyyətinin Göndərişlərin lazımi qaydada qablaşdırılmaması ilə bağlı olmadığı hal və ya lazımi qablaşdırılmanın təmin edildiyi Göndərişin yalnız bir hissəsinin (küncü və s.) zədələndiyi hal istisna edilməklə, Müştəri Göndərişlərin markalanmasına və qablaşdırılmasına dair hazırki Tələblərə riayət etmədikdə, İcraçı Göndərişin

zədələnməsinə görə məsuliyyət daşımır.

**Cədvəl 1.** Nəqliyyat qablaşdırmalarının növləri, qablaşdırma üsulları, göndərişlərin içindəki əşya növləri.

.

(Göndəriş cədvəldə yoxdursa oxşar xüsusiyyətlər və təsvir nəzərə alınmaqla anoloji göndərişlər əsas götürülməlidir)

| **Qablaşdırmanın növü** | **Göndərişin içindəki əşya növü** | **Qablaşdırma üsulu, şərhlər** |
|---|---|---|
| **Karton, kağız (kraft) qablaşdırma** | | |
| Kuryer karton zərfi | **Göndərişlər: format A4-dək, çəkisi 0,5kq-dək, hündürlüyü 15 mm**<br>Çap məhsulu: sənədlər, pasportlar, fotoşəkillər, bukletlər, jurnallar və s. | Əşyaların qablaşdırılmasına icazə verilmir. Göndərilən əşya zərfə qablaşdırılmalı, bağlanmalı, markalanmalıdır. |
| Hava təbəqəli zərf Aeropak (kraft) | **Göndərişlər:**<br>**format A4, çəkisi 0,5 kq-dək, hündürlüyü 15 mm**<br>**format A5, çəkisi 0,3 kq-dək, hündürlüyü 10 mm**<br>Bijuteriya<br>Çap məhsulu: fotoşəkillər, kitablar, bukletlər, jurnallar və s.<br>Suvenir məhsulu/ SD/ DVD-disklər<br>Zərgərlik malları | Göndərilən əşya zərfə qablaşdırılmalı, bağlanmalı, markalanmalıdır. |

| **Yumşaq qablaşdırma** | | |
|---|---|---|
| **Kuryer paketi / Seyf paketi**<br><br>**Paketlərin formatı, içliklərin çəkisi:**<br>**A2, çəkisi 4 kq**<br>**A3, çəkisi 3 kq-dək**<br>**A3+, çəkisi 4 kq-dək**<br>**A4, çəkisi 2 kq-dək**<br>**A5, çəkisi 0,5 kq-dək** | **Sınması, qopması, tökülməsi, dağılması, deformasiyaya uğraması və s. mümkün olmayan digər materiallardan hazırlanmış Göndərişlər.**<br><br>Uşaq yumşaq oyuncaqları<br>Dəri qalantereya: əlcəklər, çantalar,<br>Paltarlar<br>Ayaqqabı (qutuda)<br>Bel çantası<br>Toxuma mallar: istehsalçının qablaşdırmasında yataq və mətbəx ləvazimatları.<br>Zərgərlik zinət əşyaları | Göndərilən əşyaları amortizasiya üçün materiala, məsələn, hava qovuqlu təbəqəyə 2-3 dəfə bükməklə paketə qablaşdırmaq. Markalanmanı vurun.<br>**Aşağıdakıların qablaşdırılmasına icazə verilmir:**<br>- tərkibində kövrək maye elementləri, tozlar və s. olan əşyalar.<br>- ölçü və forma üzrə (dairəvi, düzgün olmayan formada) uyğun olmayan əşyalar;<br>- iti ucları və ya paketi cıra bilən digər elementləri olan əşyalar;<br>- göndərilən əşyanın bir hissəsi olan istehsalçı qablaşdırmasında olan və onun zədələnməsi halında sığorta hadisəsinin baş verə biləcəyi əşyalar. Məsələn, brend ayaqqabı, brend paltar və s.;<br>- istənilən növ mayelər (gellər, yağlar). |

| | | |
|---|---|---|
| **Kombinə edilmiş qablaşdırma**<br><br>**№ 1** Hava-qovuqlu təbəqə və ya qablaşdırma kağızı + streyç təbəqə + loqotipli skotç | **Sınması, qopması, tökülməsi, dağılması, deformasiyaya uğraması və s. mümkün olmayan möhkəm materiallardan hazırlanmış Göndərişlər.**<br><br>**№ 1 üçün**<br>Yol çantası<br>İdman çantası<br>«çelnok» baul-çantaları və s.<br>* Çemodanlar | **Çantaların və çemodanların qablaşdırılması üçün onların içi doldurma materialları ilə və ya əl altında olan vasitələr ilə doldurulmalıdırlar.**<br><br>**№ 1.** Göndərilən əşyanı amortizasiya üçün materiala, məsələn 2-3 dəfə hava-qovuqlu təbəqəyə və ya 1 qat əzilmiş qablaşdırma kağızına bükün, daha sonra rütubətdən və tozdan qorumaq üçün 4-6 dəfə streyç təbəqə ilə sıx bükün (qara rəngli streyçdən istifadə etmək tövsiyyə olunur) göndərişin eninə və uzununa loqotipli skotçla qablaşdırmanı bağlamaq.<br>* Çemodanların qablaşdırılması üçün büzməli kartondan qoruyucu calaqlar ilə təmin etmək və ya |

| | | |
|---|---|---|
| | | preslənmiş kartondan tutacaqlar, təkərlər, dirəklər. Markalanmanı vurun. |
| **№ 2** Streyç + Karton + Streyç təbəqə + loqotipli skotç. | **№ 2 üçün**<br>Avtomobil təkərləri | **№ 2**. Göndərilən əşyanı 3-4 dəfə streyç təbəqəyə bükün, daha sonra kartona bükün və ya yanlarına karton qoyun,<br>daha sonra yenidən 3-4 dəfə streyç təbəqəyə (qara rəngli streyçi tövsiyyə edirik) bükün, göndərişin eninə və uzununa loqotipli skotçla qablaşdırmanı bağlamaq.<br>Markalanmanı vurun. |
| **№ 3** Streyç + polietilendən və ya polipropilendən paket (və ya xortum, parça) + skotç | **№ 3 üçün**<br>Reklam məhsulları: bannerlər, afişalar<br>Tikinti materialları: divar kağızları, linoleum, kovrolin və s.<br>Toxuma mallar: xalçalar, parçalar və s. | **№ 3** Göndərilən əşyanı 3-4 dəfə streyç təbəqəyə bükün, paketə və ya xortuma yerləşdirin və ya<br>parçaya bükün, qablaşdırmaya rulon, lülə, tubis forması verin, qablaşdırmanı göndəriin eninə və uzununa loqotipli skotçla bükün, xüsusi diqqəti yan hissələrə vermək. Markalanmanı vurun. |
| **№ 4** Hava-qovuqlı təbəqə və ya qablaşdırma kağızı + büzməli karton (və ya taxta tamasa və ya büzməli karton və ya şanşəkilli karton) + streyç təbəqə + skotç | **№ 4 üçün**<br>Xokkey ağacları<br>Xizəklər<br>Snoubordlar<br>Samokatlar (qatlanmış vəziyyətdə)<br>Skeytbordlar<br>Karnizlər<br>və s. | **№ 4** Göndərilən əşyanı 3-4 dəfə streyç təbəqəyə bükün, əgər göndərilən əşyalar cütdürlərsə (məsələn xizəklər) hər birini ayrıca bükün, skotçla sıx bərkidin,<br>bundan sonra 2-3 dəfə hava-qovuqlı təbəqəyə və ya əzik qablaşdırma kağızına bükün, skotçla bərkidin, bundan sonra preslənmiş kartondan qablaşdırılmış göndərişin eni və uzunluğu üzrə karkas (və ya tubus) düzəldin və ya taxta tamasadan, şanvari kartondan və ya digər materiallardan qablaşdırılmış göndərişin eni və uzunu üzrə sərt dayaq (şin) yaradın, daha sonra sıx streyç təbəqə ilə bükmək (qara rəngdə streyçi tövsiyyə edirik), göndərişin eninə və uzununa loqotipli skotçla qablaşdırmanı bağlamaq.<br>Markalanmanı vurun. |

| |
|---|
| **Yarımsərt qablaşdırma** |

| | | |
|---|---|---|
| **Büzməli kartondan qutu**<br><br>Qutunu seçdikdə aşağıdakıları nəzərə almaq lazımdır:<br>1. Kartonun növünü, o çoxqatlı (üç qatdan az olmayaraq) büzməli kartondan hazırlanmalıdır.<br>2. Qutunun ən böyük çəkisi, qutunu onun dözə biləcəyindən artıq yükləmək olmaz, qutunun markalanmasına diqqət yetirin.<br>3. Qablaşdırmanın ölçüləri qutunu elə seçin ki, 6 tərəfdən (yuxarısı, dibi və dörd yan divarları) qutunun divarlarından içəridəki əşyaya qədər | **Göndərişin xüsusiyyəti və təsviri:**<br>Çəkisi 30 kq-dək, uzunluğu üzrə şərtlər: qablaşdırılmış əşya qutunun divarlarına dəyməməlidir.<br>Sınması, qopması, tökülməsi, dağılması və s. mümkün olmayan möhkəm materiallardan hazırlanmış məmulatlar.<br><br>**Göndərişlərin nümunələri:**<br>Avtomobillərin ehtiyat hissələri: plastik disklər, qəliblər, əyləc silindrləri, çəpkənləri və s.<br>Tikinti, təmir, musiqi, cərrah, oyun, əl işləri və s. üçün alətlər.<br>Dəftərxana malları<br>Dəri qalantereya<br>Geyim<br>Ayaqqabı<br>Çap məhsulu: kitablar, bukletlər, albomlar<br>Məişət əşyaları: süfrə ləvazimatları, | **Xüsusi mühafizə tələb etmiyən əşyalar:**<br>1. Göndərilən əşyanı amortizasiya üçün materiala, məsələn 2-3 dəfə hava-qovuqlu təbəqəyə bükmək, kənarlarını skotçla bərkitmək.<br>2. Qablaşdırılmış göndəriş büzməli kartondan olan qutunun mərkəzinə yerləşdirilməli, qablaşdırılmış əşyadan qutunun kənarlarına qədər olan məsafə 2 sm-dən az olmamalı və 5 sm-dən çox olmamalıdır, boşluqlar onların doldurulması üçün materiallarla (sıxlaşdırıcılarla) doldurulmalıdır.<br>3. Qutunu bağlayın, markalanmanı vurun. |

| | | |
|---|---|---|
| 2 sm-dən az olmayan və 5 sm-dən çox olmayan məsafəyə<br>əməl edilməlidir.<br>**Qutunun yapışdırılması üçün CDEK əməkdaşının iştirakı ilə CDEK loqotipli skotçdan istifadə edilməlidir. Qutunun əlavə möhkəmliyi və icazə verilməmiş açılmadan qorunması üçün qutunun bütün tinləri skotçla yapışdırılmalıdır.** | ləvazimat dəstləri, mətbəx üçün, vanna üçün, ev və bağ üçün dəstlər və s.<br>İnteryer əşyaları: kiçik fiqurlar, suvenirlər, çərçivələr, şamdanlar və s.<br>Toxuma mallar: parçalar, xalçalar, pərdələr, pledlər, yataq dəstləri və s. | |
| | **Göndərişin xüsusiyyəti və təsviri:**<br>1. Çəkisi 30 kq-dək, uzunluğu üzrə şərtlər: qablaşdırılmış əşyalar 1 №-li qutunun divarlarına dəyməməlidir (bax. Qablaşdırma üsulu sağ tərəfdə)<br>2. Məmulatın materialı, təyinatı:<br>- **şüşə:** tara, qab-qacaq, büllur, laboratoriya, optik, kvarsşəkilli, tibbi, vakuum, istiyədavamlı, termo-dayanıqlı, termik, qoruyucu,<br>şüşə liflər**.**<br>- **saxsı:** gildən dulusçuluq məmulatları, çini, yarımçini, şamot, fayans, mayolika və s.<br>**- məmulatın tərkibində metallar (**alüminium, qurğuşun, mis, sink, çuqun və s.).<br>**- tekstolit, bakelit, poliefir epoksid qatranı** elektro- və radiotexnikada (mikrosxemlər)**.**<br>**- plastik:** gövdə, məmulatların daxilində.<br>**- taxta:** gövdə, inşaat, mebel, qab-qacaq, interyer və s.<br>**Göndərişlərin nümunələri:**<br>Avtomobillərin ehtiyat hissələri: faralar, fənərlər, yan güzgüləri, salon elementləri, tyüninq və s.<br>Alətlər / elektrik alətləri: tikinti, təmir üçün, musiqi,<br>cərrah, oyun, əl işi üçün alətlər və s.<br>Dəftərxana malları: suvenir və hədiyyə dəstləri.<br>Xırda məişət texnikası: ütü, fenlər, çaydanlar, mikserlər, blenderlər, multivarkalar, ətçəkənlər, qəhvəüyüdənlər, ÇYT-lər, tozsoranlar,<br>ülgüclər və s.<br>Elektronika: noutbuk (17 düymə qədər), telefon, planşet, videoqeydiyyatçı, fotoçərçivələr və s.<br>Optik cihazlar: binokllar, müşahidə borusu, teleskoplar və s.<br>Məişət əşyaları: süfrə ləvazimatları, qab-qacaq dəstləri, ləvazimat dəstləri, dəstlər üçün | **Kövrək əşyalar. «1 №-li qutu 2 №-li qutuda» üsulu**<br>**a)** Göndəriş qablaşdırmasız olduqda:<br>1. Göndərilən əşyaları amortizasiya üçün materiala, məsələn hava qovuqlu təbəqəyə 2-3 dəfə bükün.<br>2. Tozdan və rütubətdən qorumaq üçün göndərilən əşyanı 4-5 dəfə streyç təbəqəyə bükün, loqotipli skotçla bərkidin.<br>3. Qablaşdırılmış göndərməni 1 №-li qutuya yerləşdirmək, 1 №-li qutunu bağlamaq.<br>4. 1 №-li qutunu daha böyük ölçülü 2 №-li qutunun mərkəzinə yerləşdirmək lazımdır, 1 №-li qutudan 2 №-li qutunun divarlarına qədər məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları onların doldurulması üçün nəzərdə tutulan materiallarla (sıxlaşdırıcılarla) doldurmaq tələb olunur.<br>5. 2 №-li qutunu bağlayın, markalanmanı vurun.<br>**1 №-li qutunun alternativi:**<br>Büzməli kartondan və ya preslənmiş karton "filler"dən əldə düzəldilmiş "tubus".<br>**b)** Göndəriş zavod qablaşdırmasındırsa (bundan sonra 1 №-li qutu)**:**<br>1. 1 №-li qutunun daxilində boşluqların doldurulması üçün materiallar (sıxlaşdırıcılar) olmalıdır, onlar olmadıqda qədər qablaşdırmaq.<br>Qablaşdırmanın içindəki əşya bir neçə hissədən ibarətdirsə, hər bir hissəni amortizasiya üçün materialla, 2-3 dəfə hava-qovuqlu təbəqə ilə bükmək, hissələr arasında onları bir-birindən ayırmaq üçün material yerləşdirmək lazımdır.<br>2. 1 №-li qutunu amortizasiya üçün materialla, 2-3 dəfə hava-qovuqlu təbəqə ilə bükmək, loqotipli skoçt ilə bərkitmək lazımdır.<br>3. 1 №-li qutunu daha böyük ölçülü 2 №-li qutunun mərkəzinə yerləşdirmək lazımdır, 1 №-li qutudan 2 №-li qutunun divarlarına qədər məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları onların doldurulması üçün nəzərdə tutulan materiallarla (sıxlaşdırıcılarla) doldurmaq tələb olunur.<br>4. 2 №-li qutunu bağlayın, markalanmanı vurun. |

| | | |
|---|---|---|
| | mətbəx, vanna üçün, ev və bağ üçün və s.<br>İnteryer əşyaları: suvenirlər,<br>şamdanlar, güldanlar, kiçik heykəllər,<br>çilçıraqlar, birbaşa közərmə lampaları, Led,<br>işıqlandırma cihazları, güzgülər, saatlar və s.<br>Bitkilər, şitillər<br>Santexnika (qarışdırıcı, kran və s.)<br>Zərgərlik bəzək məmulatları | |
| | **"Çox kövrək" materiallardan hazırlanmış əşyalar**<br>**Göndərişin xüsusiyyəti və təsviri:**<br>Qalınlığı 1 mm-ə qədər olan şüşədən hazırlanmış məmulatlar | b) "Çox kövrək" göndəriş zavod qablaşdırmasındadırsa (bundan sonra 1 №-li qutu):<br>1. 1 №-li qutunun daxilində boşluqların doldurulması üçün materiallar (sıxlaşdırıcılar) olmalıdır, onlar olmadıqda qədər qablaşdırmaq.<br>1№-li qutunun içindəki əşya bir neçə hissədən ibarətdirsə, hər bir hissəni amortizasiya üçün materialla, 2-3 dəfə hava-qovuqlu təbəqə ilə bükmək, hissələr arasında onları bir-birindən ayırmaq üçün material yerləşdirmək lazımdır.<br>2. 1 №-li qutunu amortizasiya üçün materialla, 2-3 dəfə hava-qovuqlu təbəqə ilə bükmək, loqotipli skoçt ilə bərkitmək lazımdır.<br>3. 1 №-li qutunu 2 №-li qutuya yerləşdirmək, 2 №-li qutunu bağlamaq lazımdır.<br>4. 2 №-li qutunu böyük ölçülü 3 №-li qutunun mərkəzinə yerləşdirin, 2 №-li qutudan 3 №-li qutunun divarlarına qədər məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları, onları doldurmaq üçün nəzərdə tutulan materiallarla (sıxlaşdırıcılarla) doldurun.<br>5. 3 №-li qutunu bağlayın, markalanmanı vurun. |
| | **İki və daha çox əşyalar üçün**<br>**Göndərişin xüsusiyyəti və təsviri:**<br>1. Çəkisi 15 kq-dək, uzunluğu üzrə şərtlər: qablaşdırılmış əşya qutunun divarlarına dəyməməlidir.<br>2. Sınması, qopması, tökülməsi, dağılması və s. mümkün olmayan möhkəm materiallardan hazırlanmış məmulatlar. | 1. Hər bir əşya amortizasiya üçün materiala, məsələn hava-qovuqlu təbəqəyə 2-3 dəfə bükülməli, əşyalar arasında onların bir-birindən ayrılması üçün material, məsələn büzməli karton qoyulmalıdır.<br>2. Qablaşdırılmış əşyaları büzməli kartondan olan qutunun mərkəzinə yerləşdirin, əşyadan qutunun divarlarına məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları, onları doldurmaq üçün nəzərdə tutulan materiallarla (sıxlaşdırıcılarla) doldurun.<br>3. Qutunu bağlayın, markalanmanı vurun. |

| | | |
|---|---|---|
| | **İçində maye olan əşyalar** Məişət kimyası: yalnız zavod qablaşdırmasında 5 litrədək<br>Mayelər: yalnız zavod qablarında, çəlləklərdə, bidonlarda, kanistrlərdə, bankalarda (plastik, metal, şüşə) 5 litrədək.<br>Kosmetika: kremlər, şampunlar, losyonlar, yağlar və s. (istehsalçının qablaşdırmasında)<br>Maye şəklində xüsusi temperatur rejimlərini tələb etməyən tibbi vasitələr yalnız istehsalçının qablaşdırmasında (şüşə, plastik)<br>Parfümeriya istehsalçının qablaşdırmasında (göndərmə üçün yalnız yerüstü nəqliyyat ilə) | 1. Əşyanı hermetik polietilen paketə qoyub bağlayın (və ya 2-3 dəfə streyç təbəqəyə bükün), 1-2 dəfə hava-qovuqlu təbəqəyə bükün, kənarlarını loqotipli skotç ilə bərkidin.<br>2. Göndərişləri 1№-li qutunun mərkəzinə şaquli vəziyyətdə yerləşdirin), 1 №-li qutunu bağlayın.<br>1 №-li qutunu daha böyük ölçülü 2 №-li qutunun mərkəzinə yerləşdirmək lazımdır, 1 №-li qutudan 2 №-li qutunun divarlarına qədər məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları onların doldurulması üçün nəzərdə tutulan materiallarla (sıxlaşdırıcılarla) doldurmaq tələb olunur.<br>4. 2 №-li qutunu bağlayın, markalanmanı vurun.<br>**1 №-li qutunun alternativi:**<br>Preslənmiş karton "filler"dən əl ilə düzəldilmiş "tubus". |
| | **İçində dənəvər (tozlar) və güclü qoxusu olan əşyalar**<br>Xüsusi temperatur rejimini tələb etməyən bərk və dənəvər şəkildə dərman vasitələri, yalnız istehsalçının qablaşdırılmasında. | 1. Əşyanı hermetik polietilen paketə qoyub bağlayın (və ya 2-3 dəfə streyç təbəqəyə bükün), 1-2 dəfə hava-qovuqlu təbəqəyə bükün, kənarlarını loqotipli skotç ilə bərkidin.<br>2. Əşyanı kartondan olan qutunun mərkəzinə yerləşdirin, əşyadan qutunun divarlarına qədər məsafə 2 sm-dən az, 5 sm-dən çox olmamalıdır, boşluqları bu məqsəd üçün nəzərdə tutulmuş materiallarla (sıxlaşdırıcılarla) doldurun |

| **Sərt qablaşdırma** | | |
|---|---|---|
| **«Daxili qəfəs»** - kombinə edilmiş qablaşdırma, «TAXTADAN DEYİL» əsasında büzməli kartondan qutu vardır, onun içinə isə qalınlığı 2 sm olan təbəqəşəkilli materiallardan (penoplast, penopolistirol, preslənmiş karton (filler), şanşəkilli karton, havalı qablaşdırma) hazırlanmış karkas yerləşdirilir.<br><br>Karkas qutunun daxili divarlarını altı tərəfdən (yuxarı, dib və dörd yan divarları) örtməlidir, onun təbəqələri bir birləri ilə sıx şəkildə birləşirlər, olmadan | **Göndərişin xüsusiyyəti və təsviri:**<br>1. Çəkisi 30 kq-dək, uzunluğu üzrə şərtlər: qablaşdırılmış əşya qutuda olan qəfəsin divarlarına toxunmamalıdır.<br>2. Məmulatın materialı, təyinatı:<br>**- şüşə:** tara, qab-qacaq, büllur, laboratoriya, optik, kvarsşəkilli, tibbi, vakuum, istiyədavamlı, termo-dayanıqlı, termik, qoruyucu, şüşə liflər.<br>**- saxsı:** gildən dulusçuluq məmulatları, çini, yarımçini, gil-daş kütlələr, şamot, fayans, mayolika və s.<br>**- metal** (alüminium, qurğuşun, mis, sink, çuqun və s.) məmulatın tərkibində.<br>**- tekstolit, bakelit, poliefir qatran, epoksid qatranı** elektro- və radiotexnikada.<br>**- plastik:** gövdə, məmulatların daxilində.<br>**- taxta:** gövdə, tikinti, mebel, qab-qacaq, interyer və s. | <u>Büzməli kartondan olan qutuya qablaşdırılmış, o cümlədən zavod qablaşdırılmasında olan göndərişlər:</u><br>Büzməli qutunun daxilində boşluqların doldurulması üçün materiallar (sıxlaşdırıcılar) olmalıdır, onlar olmadıqda qədər qablaşdırmaq lazımdır. Qablaşdırmanın içindəki əşya bir neçə hissədən ibarətdirsə, hər bir hissəni 2-3 dəfə hava-qovuqlu təbəqə ilə bükmək, hissələr arasında ayırmaq üçün material yerləşdirmək lazımdır.<br>2. Büzməli kartondan ibarət olan qutunu 5-6 dəfə streyç təbəqə ilə möhkəm sarımaq, loqotipli skotç ilə yapışdırmaq lazımdır.<br>3. Qablaşdırımış göndərişi daxili qəfəsin mərkəzinə yerləşdirin, qablaşdırılmış əşyadan daxili qəfəsin divarlarına qədər olan məsafə 2 sm-dən az və 5 sm-dən çox olmamalıdır, boşluqları onların doldurulması üçün nəzərdə tutulmuş materiallarla (sıxlaşdırıcılar ilə) doldurun<br>4. Qutunu bağlayın, markalanmanı vurun.<br><br><u>Göndəriş qablaşdırmasız olduqda:</u><br>1. Göndərilən əşyanı amortizasiya üçün materiala, məsələn, hava-qovuqlu |

| | | |
|---|---|---|
| boşluq materialına bükün. | **Göndərişlərin nümunələri:**<br>Avtomobil hissələri: faralar,<br>lampalar və s. Məişət texnikası:<br>Plazma və MK panellər, televizorlar<br>peyk antenləri, musiqi mərkəzləri, ev<br>kinoteatrları və s.<br>Məişət kimyası: yalnız istehsalçının<br>qablaşdırılmasında.<br>Dekorativ əşyalar: çərçivədə şəkillər, panno,<br>güldanlar, heykəllər, kuboklar və s.<br>Mayelər: 5 l qədər plastikdən, şüşədən və ya<br>metaldan hazırlanmış zavod istehlakçı<br>qablarına (çəlləklər, bidonlar,<br>kanistrlər, bankalar) qablaşdırılmış.<br>İstehsalçı qablaşdırmasında və onsuz ofis<br>texnikası:<br>monitorlar, monobloklar,<br>noutbuklar, printerlər, skanerlər və<br>s.<br>İnteryer əşyaları, o cümlədən işıqlandırma cihazları,<br>çilçıraqlar,<br>bilavasitə közərmə lampaları, Led, çıraqlar<br>və s.<br>Bitkilər, şitillər, güllər (xüsusi daşıma<br>şərtlərini tələb etməyən). | 2-3 dəfə təbəqəyə bükməklə. Əgər daşınan əşya bir neçə hissədən ibarətdirsə o zaman hər bir hissəni 2-3 dəfə hava-qovuqlu təbəqəyə bükün, hissələr arasında onları ayırmaq üçün nəzərdə tutulmuş material, məsələn, büzməli karton qoyun, hissələri yaxınlaşdırmaq, 5-6 dəfə qalın qatlı streyç təbəqəyə bükün.<br>2. Qablaşdırılmış göndərişi daxili qəfəsin mərkəzinə yerləşdirun, qablaşdırılmış əşyadan daxili qəfəsin divarına qədər məsafə 2 sm-dən az və<br>5 sm-dən çox olmamalıdır, boşluqları onların doldurulması üçün nəzərdə tutulmuş materiallarla (sıxlaşdırıcılar ilə) doldurun.<br>3. Qutunu bağlayın, markalanmanı vurun. |
| **«Taxta qəfəs»**<br>-<br>göndərişin ətrafında taxta karkas (lövhə), taxta tamasalarından (lövhələrdən) yan calaqları ilə<br>**"bütöv" taxta qəfəs tələb edilən göndərişlər üçün tətbiq edilmir.** | **Göndərişin xüsusiyyəti və təsviri:**<br>1. Çəkisi 30 kq-dan yuxarı<br>2. Məmulatın materialı, təyinatı:<br>**- şüşə:** pəncərə, tara, qab-qacaq, büllur, laboratoriya, optik, kvars, tibbi, vakuum, istiyədavamlı, termodavamlı, termik, qoruyucu, şüşə lif.<br>- **saxsı:** gildən dulusçuluq məmulatları, çini, yarımçini, gil-daş<br>kütlələr, şamot, fayans, mayolika və s.<br>- **metal** (alüminium, qurğuşun, mis, sink, çuqun və s.) məmulatın tərkibində.<br>**- tekstolit, bakelit, poliefir qatran, epoksid qatranı** elektro- və radiotexnikada.<br>**- plastik:** gövdə, məmulatların daxilində.<br>**- taxta:** gövdə, tikinti,<br>mebel, qab-qacaq, interyer və s. | Taxta qəfəs tələb edən göndərişlər yalnız qədər qablaşdırılmış vəziyyətdə qəbul edilirlər:<br>1. Göndərilən əşyanı amortizasiya üçün materiala, məsələn 2-3 dəfə hava-qovuqlu təbəqəyə bükün, çıxıntılı hissələri və küncləri ikiqat təbəqəli amortizasiya ilə təmin edin.<br>2. Tozdan və rütubətdən qorumaq üçün göndərilən əşyanı 4-5 dəfə streyç təbəqəyə bükün, loqotipli skotçla bərkidin.<br>3. Markalanmanı vurun. |
| | **Göndərişlərin nümunələri:**<br>Avtomobil hissələri: avtomobil şüşələri, qapılar, kapotlar, qanadlar, bamper, moldinqlər, cihaz panelləri, mühərriklər, ötürmə qutusu, çənlər, çərçivələr, radiatorlar, arxa körpülər, dəstəklər,<br>ştamplanmış və ya tökmə təkər diskləri və s.<br>Avtomatlar: oyun avtomatları, bankomatlar, ödəniş, vendinq və s.<br>Akvariumlar, yığılmış vəziyyətdə heyvanlar üçün qəfəslər.<br>Dekoratov əşyalar: çərçivədə şəkillər və pannolar, döşəməüstü güzgülər, güldanlar, heykəllər, kuboklar, döşəməüstü saatlar və s. | |

| | | |
|---|---|---|
| | Həcmi 5 l-dən çox olan mayelər - plastik, şüşə və ya metal zavod istehlak qablarına, çəlləklərə, bidonlara, kanistrlərə, bankalara qablaşdırılmış<br>İstehsalçının qablaşdırılmasında və onsuz məişət texnikası:<br>soyuducular, sobalar, bişirmə panelləri, paltaryuyan maşınlar, qabyuyan maşınlar, kondisionerlər, su qızdırıcıları, mətbəx soruculari;<br>plazma MK panellər, televizorlar, monitorlar<br>peyk antenləri, çanaqlar; musiqi mərkəzləri, musiqi qurğuları, ev kinoteatrları və s. Yumşaq mebel: divanlar, kreslolar, stullar, puflar və s.<br>Yığılmış mebel: şkaflar, arakəsmələr və s. Mebel hissələri: stolüstülər, qapılar, vitrinlər, fasadlar, vitrajlar və s.<br>Musiqi alətləri: arfalar, pianino, royallar, sintezatorlar, baraban qurğuları, violençellər, kontrabaslar və s.<br>Avadanlıq: tibbi, əczaxana, laborator, sənaye, ambar, sərgi, elektro- və radio texnikası.<br>İşıqlandırıcı cihazlar: uf-lampalar, kvars lampaları, resirkulyatorlar və s. Məişət əşyaları: döyülüb hazırlanmış manqallar, tökmə qazanlar və s.<br>Bağ və tikinti texnikası:<br>ot örtüyü biçənlər, mini traktorlar, benzin mişarları və s.<br>Saxsıdan, fayansdan, çinidən santexnikalar, duş kabinaları və s.<br>Solyarilər, duş kabinələri, vannalar<br>İnşaat materialları: profil borusu, şveller, rels, künclük, blyum, slyab, sement, kərpic, laminat, saxsı lövhələr və s.<br>Nəqliyyat vasitələri: elektrik samokat, heroskuter, motosikl, moped, velosiped, motorlu qayıqlar və s. | |